**AZƏRBAYCAN RESPUBLİKASININ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN 2025-Cİ İL ƏRZİNDƏ FƏALİYYƏTİ BARƏDƏ**

# HESABAT

## DİNİ ETİQAD AZADLIĞININ TƏMİN EDİLMƏSİ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 yanvar 2025-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ölkəmizdə fəaliyyət göstərən dini qurumlara maliyyə yardımı göstərilmişdir.




Hazırda ölkədə 994 dini qurum fəaliyyət göstərir. Bunlardan 956-sı İslam təmayüllü, 38-i qeyri-islam təmayüllü dini qurumlardır.




Ölkə ərazisində ümumilikdə 2387 məscid var, 16 kilsə, 7 sinaqoq, 23 xristian dua evi, 1 bəhai və 1 krişna ibadət yeri fəaliyyət göstərir.




2025-ci ildə Dövlət Komitəsi tərəfindən bütün dini icmalara maliyyə hesabatı ilə bağlı ünvanlanmış müraciət əsasında 780 İslam, 27 digər dini konfessiya və 21 ziyarətgah 2024-2025-ci illərin müvafiq hesabat dövrünə aid maliyyə hesabatını təqdim etmişdir. Dövlət Komitəsinə dini qurumlar və dini icması olmayan məscidlər də daxil olmaqla təqdim olunan hesabatların sayı 727-dən 1223-ə yüksəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 may 2025-ci il tarixli Sərəncamına əsasən, Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən Pir Həsən ziyarətgahında, 5 may 2025-ci il tarixli Sərəncamı ilə Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən İmam məscidində təmir-bərpa işlərinin aparılması üçün maliyyə vəsaiti ayrılmışdır. Hər iki dini ibadət yerində təmir işlərinin 2026-cı il ərzində yekunlaşdırılması planlaşdırılır.

Hesabat dövründə İslam dininə aid olmayan digər dini konfessiyalara məxsus ibadət evlərində müntəzəm monitorinqlər aparılmış və bu qurumlarla bağlı məlumat bankı yenilənmişdir. Xristian dini icma nümayəndələrinin işğaldan azad olunmuş bölgələrə və digər regionlara səfərləri təşkil edilmişdir.

Qeyd olunan icmaların fəaliyyətinə müdaxilələrin qarşısının alınması məqsədilə hüquq mühafizə orqanları ilə koordinasiyalı fəaliyyət həyata keçirilmişdir. Onlara dini mərasimlərini sərbəst keçirmələri üçün müvafiq şərait yaradılmışdır.

***

## DİN XADİMLƏRİNİN TƏYİNATI

2025-ci ilin fevral ayının 20-28-də keçirilmiş dörd vakansiya üzrə elan olunmuş müsahibədə iştirakla bağlı 119 nəfər sənədlərini təqdim etmişdir. Sənəd verən şəxslərdən 13-ü qadın olmaqla 45 nəfər müsahibədə uğur qazanmışdır.



Hazırda ibadət evlərində Dövlət Komitəsi tərəfindən təyin olunmuş 341 din xadimi fəaliyyət göstərir.




Hesabat dövründə 51 din xadimi vakant yerlərə təyin olunmuşdur. Onlardan 46-sı ölkə daxilində, 4-ü ölkə xaricində, 1 nəfər isə həm ölkə daxilində, həm də ölkə xaricində dini təhsil almışdır.




***

## DİNŞÜNASLIQ EKSPERTİZASI

Hesabat dövründə ölkəyə idxal və ölkədə nəşr edilməsi məqsədilə daxil olmuş müraciətlər əsasında 3598 adda dini məzmunlu ədəbiyyata baxılmışdır. Onlardan 3385-i idxal, 213-ü isə nəşr olunmaq üçün nəzərdə tutulmuşdur.

## DİNİ TƏHSİL

***Azərbaycan İlahiyyat İnstitutunun (AİI) fəaliyyətinə dair.*** Din sahəsində ölkəmizdə yeganə ali təhsil müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutunda 307 tələbə təhsil alır.

### AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN TƏDRİS GÖSTƏRİCİLƏRİ

| Cari tələbə sayı | | |
|---|---|---|
| | Bütün pillələr üzrə cəmi | 307 |
| | Bakalavriat pilləsi | 293 |
| | Magistratura pilləsi | 8 |
| | Doktorantura pilləsi | 5 |
| | Dissertantura pilləsi | 1 |

| Məzun statistikası | | |
|---|---|---|
| | 2024/2025-ci tədris ili üzrə cəmi | 56 |
| | 2024/2025 məzunları (Bakalavr) | 48 |
| | 2024/2025 məzunları (Magistr) | 8 |
| | Bugünədək bakalavr pilləsini bitirənlər | 220 |

| ƏCNƏBİ TƏLƏBƏLƏR | |
|---|---|
| Ümumi qəbul olunanlar | 13 |
| Türkiyə vətəndaşları (4 nəfər) | 2 bakalavr, 2 magistr |
| Gürcüstan vətəndaşları (9 nəfər) | 2 bakalavr, 7 məzun |

AİI ilə Qazaxıstan Respublikasının “Nur-Mübarək”, Misir İslam Mədəniyyəti və Türkiyə Respublikasının “İstanbul 29 Mayıs” universitetləri arasında imzalanmış Əməkdaşlıq Protokoluna əsasən həyata keçirilən tələbə mübadiləsi çərçivəsində 2024/2025-ci tədris ilinin yaz semestrində təhsil alan 4 tələbə bir semestr müddətində təhsillərini müvəffəqiyyətlə başa vuraraq geri qayıtmışdır.

Malayziya Beynəlxalq İslam Universiteti (MBİU) və AİI arasında imzalanmış Əməkdaşlıq müqaviləsi çərçivəsində AİI-nin “Dinşünaslıq” ixtisası üzrə 2 məzunu MBİU-nun magistratura pilləsində təhsillərini davam etdirir. AİI fəaliyyəti dövründə ümumilikdə 38 xarici ali təhsil müəssisəsi ilə əməkdaşlığın inkişafını nəzərdə tutan müxtəlif səviyyəli sənədlər imzalamışdır.

Hesabat dövründə İnstitutun professor-müəllim heyətinin və digər əməkdaşlarının elmi-tədqiqat və elmi-publisistik fəaliyyətləri nəticəsində 10 kitab ərsəyə gəlmiş, həmçinin beynəlxalq və yerli elmi jurnallarda 26 məqalə, beynəlxalq və respublika elmi konfrans, simpozium və forumlarında 29 tezis, məruzə və məqalə təqdim olunmuşdur.

***Bakı İlahiyyat Kollecinin fəaliyyətinə dair.*** 2025/2026-cı tədris ili üçün qəbul planına əsasən dini fəaliyyət sahəsində orta ixtisas təhsilli kadr hazırlığını həyata keçirən Bakı İlahiyyat Kollecinə tələbə qəbulu aparılmışdır.

### BAKI İLAHİYYAT KOLLECİNİN TƏDRİS GÖSTƏRİCİLƏRİ

| Qəbul Planı (2025/2026) | | |
|---|---|---|
| Ümumi orta (9 illik) təhsil | 15 | 30 |
| Tam orta (11 illik) təhsil | 15 | |
| **Kurslar üzrə bölgü** | | |
| 1-ci kurs tələbələri | 30 | 48 |
| 2-ci kurs tələbələri | 18 | |

***

## DİNİ MAARİFLƏNDİRMƏ

Hesabat dövründə Dövlət Komitəsi Azərbaycan dövlətinin din sahəsində həyata keçirdiyi siyasətin prioritet istiqamətləri, dini etiqad azadlığının təmin olunması, milli-mənəvi dəyərlərin, multikultural ənənələrin təbliği məqsədilə kompleks tədbirlərin icrasını davam etdirmişdir.

Eyni zamanda, müvafiq dövlət proqramlarının icrası, habelə əlamətdar günlər və mühüm ictimai əhəmiyyətə malik hadisələrlə bağlı bir sıra istiqamətdə maarifləndirmə xarakterli seminarlar, treninqlər, konfranslar və görüşlər təşkil etmişdir.

Bu məqsədlə Dövlət Komitəsi tərəfindən 650-dən artıq tədbir keçirilmişdir. Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin "2025-ci ildə dini ekstremizmə qarşı mübarizəyə dair birgə Tədbirlər Planı" çərçivəsində 5 regional müşavirə baş tutmuşdur. Regional müşavirələrdə Dövlət Komitəsinin rəhbərliyi, məsul əməkdaşları, yerli hüquq mühafizə və icra hakimiyyəti orqanlarının rəhbərliyi iştirak etmişdir.

Bundan əlavə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti və Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə ayrı-ayrılıqda imzalanmış tədbirlər planları çərçivəsində bir sıra tədbirlər təşkil edilmişdir.

**DÖVLƏT PROQRAMLARI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN TƏDBİRLƏR**

| | |
|---|---|
| "Konstitusiya və Suverenlik İli" çərçivəsində | 55 |
| "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" çərçivəsində | 30 |
| "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı" çərçivəsində | 25 tədbir, 3 görüş |
| "Uşaq Hüquqları Aylığı" çərçivəsində | 21 |
| "Sülh aylığı" çərçivəsində | 18 |
| "İnsan hüquqları aylığı" çərçivəsində | 16 |
| "Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2025-2027-ci illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində | 15 |
| "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" çərçivəsində | 12 |
| CƏMİ | 195 |

**Respublika əhəmiyyətli tədbirlər**

Hesabat dövründə Dövlət Komitəsi tərəfindən vətəndaşların dini etiqad azadlığının və hüquq bərabərliyinin təmin olunması, eyni zamanda zərərli dini ideologiyaların ölkəmizdə yayılmasının qarşısının alınması, dini radikalizm və ekstremizmə qarşı ideoloji müstəvidə effektiv mübarizə aparılması məqsədilə 7 regional konfrans, əlamətdar günlərə həsr olunmuş 300-ə yaxın tədbir təşkil olunmuşdur.

2025-ci ilin oktyabr, noyabr və dekabr ayları ərzində Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu da daxil olmaqla bir sıra regionlarda Dövlət Komitəsinin Mərkəzi Aparatının

əməkdaşlarının iştirakı ilə müxtəlif mövzularda 30 tədbir keçirilmişdir. Şəhid ailələri, qazilər, din xadimləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə ümumilikdə 2100 nəfər iştirak etmişdir.

Ümumilli Lider Heydər Əliyevin 12 dekabr – Anım günü ilə əlaqədar 1-9 dekabr 2025-ci il tarixində ibadət evlərinin ərazilərində "Yaşıl gələcək naminə" adlı ağacəkmə və abadlıq işləri kampaniyası təşkil edilmişdir. Aksiyada ümumilikdə 500 ibadət evi iştirak etmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı Media Mərkəzi tərəfindən Azərbaycanda müxtəlif dinlərin nümayəndələri arasında mövcud olan birgəyaşayış və tolerantlıq ənənələrini əks etdirən "Harmoniya" sənədli filmi hazırlanmış və Nizami Kino Mərkəzində təqdimatı keçirilmişdir.

### RESPUBLİKA ƏHƏMİYYƏTLİ TƏDBİRLƏR

| Tarix | Keçirildiyi yer | Konfransın mövzusu |
|---|---|---|
| **REGİONAL KONFRANSLAR** | | |
| 24 aprel 2025 | Zaqatala | "Qloballaşan dünyada din siyasəti: yeni reallıqlar və perspektivlər" |
| 12 may 2025 | Qəbələ | "Heydər Əliyev və milli-mənəvi dəyərlərə qayıdış" |
| 19 iyun 2025 | Qusar | "Dini maarifçilik işinin təşkili: ənənə və müasirliyin vəhdəti" |
| 30 sentyabr 2025 | Lənkəran | "Dövlət-din münasibətləri və müasir çağırışlar" |
| 21 oktyabr 2025 | Gəncə | "İnklüziv cəmiyyət quruculuğunda din xadimlərinin rolu" |
| 20 noyabr 2025 | Sabirabad | "Dinin siyasiləşməsi və məzhəbçilik: milli kimliyə yönəlmiş təhdid kimi" |
| 3 dekabr 2025 | Göyçay | "Milli-mənəvi kimlik və müasir çağırışlar" |
| **FESTİVAL** | | |
| 5 noyabr 2025 | Bakı | "Fərqliliyin rəngi" |
| **FORUM** | | |
| 24 dekabr 2025 | Bakı | "Azərbaycanda dövlət-din münasibətlərinin konstitusion prinsipləri: dünyəvilik və vicdan azadlığı" mövzusunda Azərbaycan Din Xadimlərinin II Forumu |
| **DİGƏR TƏDBİRLƏR** | | |
| 15 may 2025 | Bakı | 15 may - Beynəlxalq Ailə Günü münasibətilə "Ailə dəyərlərimizə gənclərin baxışı" mövzusunda açıq dərs |
| 5 iyul 2025 | Ölkə ərazisində | Aşura günü ilə əlaqədar qanvermə aksiyası |
| 15-16 iyul 2025 | Şamaxı | "Müasir informasiya məkanı və dini etiqad azadlığı" mövzusunda konfrans |
| 22-23 oktyabr 2025 | Bakı | "Müasir din təhsili modelləri: mənəvi dəyərlər və qlobal çağırışlar kontekstində" mövzusunda beynəlxalq simpozium |
| 5 noyabr 2025 | Bakı | "Vətən müharibəsi – 5 il: Birliyin zəfəri" mövzusunda tədbir |
| 15 dekabr 2025 | Bakı | "Dini düşüncə mədəniyyəti: pedaqoji perspektivlər" mövzusunda konfrans |

Elm və Təhsil Nazirliyi ilə birgə "Dini düşüncə mədəniyyəti: pedaqoji perspektivlər" mövzusunda konfrans, eləcə də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Bakı Ekspo Mərkəzində "Fərqliliyin rəngi" festivalı keçirilmişdir. Bundan əlavə, "Gülüstan" sarayında "Vətən müharibəsi – 5 il: Birliyin zəfəri" adlı tədbir təşkil olunmuşdur.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində Bakıda keçirilmiş Azərbaycan Din Xadimlərinin II Forumu dünyəvilik və vicdan azadlığı kimi təməl konstitusion dəyərlərin təbliği, din xadimlərinin hüquq və vəzifələri, dövlət-din münasibətlərinin hüquqi, mədəni aspektləri, multikultural mühitin möhkəmləndirilməsi ilə bağlı məsələlərin müzakirəsinə həsr olunmuşdur. Forumda respublikamızın müxtəlif bölgələrindən fərqli dinlərə mənsub 100-dən çox din xadimi, müvafiq dövlət qurumlarının nümayəndələri, dini təhsil müəssisələrinin müəllimləri, ilahiyyatçı alim və mütəxəssislərlə yanaşı, Türkiyə, Özbəkistan və Qazaxıstanın dini sahədə səlahiyyətli dövlət qurumlarının rəhbər şəxsləri də iştirak etmişlər.

Dövlət Komitəsinin sədri dekabrın 8-də Heydər Əliyev Fondu, Elm və Təhsil Nazirliyi və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) birgə təşkilatçılığı ilə keçirilən "İslam Dünyasında Süni İntellekt İndeksinin Təqdimatı" adlı tədbirdə iştirak etmişdir.

***

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Ölkəmizin dövlət-din münasibətlərinin, tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, eləcə də zəngin mənəvi-əxlaqi irsinin təbliğ edilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və əməkdaşlıq məsələlərinin müzakirəsi məqsədilə bir sıra xarici ölkələrin nümayəndə heyətləri və diplomatik korpus təmsilçiləri ilə görüşlər keçirilmişdir.

### XARİCİ QONAQLAR VƏ DİPLOMATİK KORPUS NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞLƏR

| | |
|---|---|
| 24 fevral | **Stiven Şnek** (ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının sədri), **Qillermo Kantor** (Komissiyanın Araşdırma və Siyasət üzrə direktoru), **Dilan Şexnayder** (Komissiyanın siyasi analitiki), **Viki Hartzler** (Komissiyanın müvəkkili), **Mohamed Elsanusi** (Komissiyanın müvəkkili), **Mixail Seroka** (ABŞ-nin Azərbaycandakı səfirliyinin Siyasi işlər şöbəsinin rəhbəri) |
| 21 may | **Birol Akgün** (Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri) |
| 27 may | **Bob Roberts** (ABŞ-nin Dinlərarası Qonşuluq Şəbəkəsinin həmtəsisçisi), **Cek Cerard** (İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Yetmişlər Komitəsinin üzvü), **Pol Pikard** (Kilsənin Avropa üzrə nümayəndəsi), **Məhəmməd Əbdül Rəhim Əl-Bayumi** (Misir Ərəb Respublikasının İslam Məsələləri Ali Şurasının Baş katibi) |
| 19 iyun | **Abraham Kuper** (ABŞ-nin Simon Vizental Mərkəzinin sədr müavini, ravvin) |
| 4 sentyabr | **Tilo Braune** (Almaniyanın "Əsas dəyərlər və Beynəlxalq Anlaşma Fondu" İdarə heyətinin sədri), Volker Brext (Fondun icraçı direktoru) |
| 8 sentyabr | **Moctəbə Dəmirçilu** (İran İslam Respublikasının Azərbaycandakı səfiri) |
| 8 sentyabr | **Ronen Krausz** (İsrailin Azərbaycandakı səfiri) |
| 18 sentyabr | **Mayssoun Zein Al Din** (Almaniya Şimali Reyn-Vestfaliya Beynəlxalq Siyasət Akademiyasının icraçı direktoru) |
| 2 oktyabr | **Kevin Tayler** (Global Teen Challenge təşkilatının icraçı direktorunun müavini), Kuanış Akkuzov (Təşkilatın Gürcüstan üzrə direktoru) |
| 17 noyabr | **Mariyana Kuyundziç** (Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri, səfir) |
| 4 dekabr | **Mark Şnayer** (ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti və Hampton sinaqoqunun təsisçisi, ravvin) |
| 5 dekabr | **Kristian Kamill** (İsveç Krallığının Dinlərarası Dialoq üzrə xüsusi elçisi, səfir) |
| 8 dekabr | **Nümayəndə heyəti** (Türkiyə Cümhuriyyətinin Aziz Mahmud Hüdayi Vəqfi) |
| 18 dekabr | **Emi Karlo** (ABŞ-nin Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili) |

İl ərzində 14 belə görüşdə dini sahədə əməkdaşlıq məsələləri ilə bağlı müxtəlif təklif və ideyalar müzakirə olunmuşdur. Azərbaycanda dini etiqad azadlığının təmin olunması sahəsində görülmüş işlərlə bağlı ətraflı məlumat verilmişdir.

Dövlət Komitəsinin sədri Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə 26-27 may 2025-ci il tarixlərində Bakıda keçirilən "İslamofobiya diqqət mərkəzində: Qərəzin aşkara çıxarılması, stiqmaların dağıdılması" mövzusunda beynəlxalq elmi konfransda çıxış etmişdir. Oktyabrın 22-23-də "Müasir din təhsili modelləri: mənəvi dəyərlər və qlobal çağırışlar kontekstində" mövzusunda beynəlxalq simpozium və dekabr ayının 24-də Azərbaycan Din Xadimlərinin II Forumu çərçivəsində xarici qonaqlarla bir sıra görüşlər keçirilmişdir.

**BEYNƏLXALQ SİMPOZİUM VƏ AZƏRBAYCAN DİN XADİMLƏRİNİN II FORUMU ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞLƏR**

| | | |
|---|---|---|
| Zekeriya Akman | Türkiyə | Kilis 7 Aralık Universitetinin rektoru |
| Sahibzadə Sultan Əhməd Əli | Pakistan | MUSLIM İnstitutunun sədri |
| Əhməd Hüseyn Məhəmməd İbrahim | Qazaxıstan | "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetinin rektoru |
| Bahman Baktiari | ABŞ | Baskerville İnstitutunun icraçı direktoru |
| Giorgi Zviadadze | Gürcüstan | Tbilisi Ruhani Akademiyası və Seminariyasının rektoru |
| Damir Muhetdinov | Rusiya Federasiyası | RF Müsəlmanları Ruhani İdarəsi sədrinin I müavini, Moskva İslam İnstitutunun rektoru, AİI-nin fəxri professoru |
| Arif Saidov | Rusiya Federasiyası | Şeyx Abdulla Əfəndi adına İslam Universitetinin rektoru |
| Safi Arpaquş | Türkiyə | Türkiyə Cümhuriyyəti Diyanət İşləri İdarəsinin sədri |
| Müzəffər Kamilov | Özbəkistan | Dövlət müşavirinin müavini, Özbəkistan Beynəlxalq İslam Akademiyasının rektoru |
| Yernur Aitkenov | Qazaxıstan | Qazaxıstan Parlamenti Senatının üzvü |

Dövlət Komitəsinin sədri xarici ölkələrə səfərləri zamanı beynəlxalq konfrans və forumlarda iştirak etmiş, müxtəlif ölkələrin dövlət və dini qurumlarının rəhbərləri ilə 25 görüş keçirmişdir. Səfərlər çərçivəsində Azərbaycanda dini etiqad azadlığının təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilmişdir.

## XARİCİ SƏFƏRLƏR

| | | |
|---|---|---|
| 19–20 fevral | Bəhreyn | "Bir ümmət, ortaq tale" mövzusunda İslamdaxili Dialoq Konfransında iştirak |
| 1–5 mart | Rumıniya | Dövlət katibi Çiprian Vasile Oliniçinin dəvəti ilə rəsmi səfər |
| 11–12 mart | Türkiyə | Soydaşlarımızın kompakt yaşadığı İğdır və Qarsda Ramazan ayı ilə əlaqədar iftar süfrələrinin təşkili |
| 16–17 mart | Gürcüstan | Soydaşlarımızın kompakt yaşadığı Rustavi və Tbilisi şəhərlərində Ramazan ayı ilə əlaqədar iftar süfrələrinin təşkili |
| 30 aprel – 1 may | Özbəkistan | "Maturidilik-tolerantlıq, mötədillik və maarifçilik təlimi" mövzusunda beynəlxalq konfransda iştirak |
| 4–9 may | Vyetnam | 20-ci "Birləşmiş Millətlər Təşkilatının Vesak Günü" konfransında iştirak |
| 22–26 iyun | Polşa və Almaniya | "Müxtəliflikdə birlik: dialoqda dinlərarası sədalar" adlı tədbirin təşkili |
| 27–30 iyul | Vatikan | Müqəddəs Taxt-Tac ilə dinlərarası dialoq sahəsində Anlaşma Memorandumunun imzalanması |
| 3–9 oktyabr | ABŞ | 32-ci Beynəlxalq Hüquq və Din simpoziumunda iştirak və plenar sessiyada iştirak |
| 29–30 oktyabr | Türkiyə | TDT çərçivəsində əməkdaşlıq platformasının yaradılması üzrə müzakirələrdə iştirak |
| 14–15 dekabr | Səudiyyə Ərəbistanı | BMT Sivilizasiyalar Alyansının XI Qlobal Forumunda iştirak |

***

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında təsdiq edilmiş mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Dövlət Komitəsinin sədri bir sıra şəhər və rayonlarda vətəndaşları qəbul etmişdir. Aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbullarda vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilmiş, Dövlət Komitəsinin səlahiyyətlərinə aid məsələlərin həlli üçün müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilmişdir.

### VƏTƏNDAŞ QƏBULLARI

| | | | |
|---|---|---|---|
| Aylıq qrafik üzrə qəbullar | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin inzibati binası | | 61 nəfər |
| Regional qəbullar | Göygöl, Siyəzən, Qax, Zərdab, Oğuz, Qazax, Astara, Ağsu, Hacıqabul, Şabran, Cəlilabad, Tərtər, Ordubad, İmişli rayonları və Xırdalan şəhəri | 65 şəhər və rayon | 247 nəfər |
| CƏMİ | | | 308 nəfər |

Hesabat dövrü ərzində Dövlət Komitəsinin rəsmi veb-saytı (scara.gov.az) funksionallıq və dizayn baxımından müasir tələblərə uyğunlaşdırılaraq yenilənmiş, istifadəçi rahatlığını təmin etmək məqsədilə yeni modullar əlavə edilmişdir. Bu çərçivədə vətəndaşların qəbulu prosesinin keyfiyyətinin öyrənilməsi, göstərilən xidmətlərin daha səmərəli təşkili, eləcə də təklif və rəylərin toplanması məqsədilə Komitənin rəsmi veb-saytında "Sorğu" bölməsi yaradılmış, rəsmi sosial

şəbəkə hesablarında sorğular keçirilmiş, xidmətlər barədə maarifləndirmə işi aparılmışdır. Rəsmi internet saytında 814 xəbər dərc olunmuş, sosial media vasitəsilə isə ümumilikdə 2181 məlumat təqdim edilmişdir. Sosial şəbəkələrdə 97 poster və 87 videoçarx paylaşılmışdır.

**İNFORMASİYA VƏ KOMMUNİKASİYA FƏALİYYƏTİ**

| | |
|---|---|
| Dövlət Komitəsinin rəsmi saytında yerləşdirilən məlumatlar | 814 |
| Sosial şəbəkə səhifələrində paylaşılan məlumatlar | 2181 |
| Sosial şəbəkə səhifələrində paylaşılan posterlər | 97 |
| Sosial şəbəkə səhifələrində paylaşılan videoçarxlar | 87 |
| CƏMİ | 2844 |

Hesabat dövründə Dövlət Komitəsinin “Global Media Group”la birgə layihəsi olan “AMİN” verilişinin 50 buraxılışı efirə getmişdir. Verilişin ümumi baxış sayı 608 789 nəfər, orta baxış sayı isə 10-12 min nəfər olmuşdur. Aİİ-nin “İlahiyyat TV” “Yutub” kanalında fərqli rubrikalar altında verilişlər yayımlanmış, sual-cavab formatında qısa videolar hazırlanmış, Ramazan ayı dövründə isə həftədə iki dəfə “Ramazan hikmətləri” rubrikası təqdim olunmuşdur.

Dövlət Komitəsinin göstərdiyi xidmətlərlə bağlı Dövlət Xidmətləri Reyestrinə rüblük məlumatların yerləşdirilməsi təmin edilmişdir. Vətəndaşların müraciətlərini operativ qəbul etmək, məqsədilə Çağrı mərkəzinin fəaliyyəti təşkil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının icrası sahəsində vəziyyətin yaxşılaşdırılması ilə bağlı tədbirlər davam etdirilmişdir. Görülmüş işlər nəticəsində “Dövlət Nəzarət İnformasiya Sistemi”ndə 2024-cü ilin aprel ayında 56 faiz olan icra səviyyəsi hesabat dövründə 95.45 faizə yüksəlmişdir.

Dövlət Komitəsi tərəfindən hazırlanmış “AMİN” (“Azerbaijan Multicultural Information Network”) dövlət informasiya sistemi üzrə əsas texniki, funksional və təşkilati tədbirlərin böyük hissəsi 2025-ci il ərzində yekunlaşmış, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən məqsədəuyğunluq haqqında müsbət rəy alınmışdır. “AMİN” dövlət informasiya sisteminin 2026-cı ildə istismara verilməsi planlaşdırılır.

***

## MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDUNUN FƏALİYYƏTİ

Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF) hesabat dövründə ümumilikdə 1197 din xadiminə aylıq maddi dəstək göstərmişdir.

MDTF tərəfindən Aİİ-nin tələbələrinə də təsnifatlaşdırılmış meyarlara əsasən aylıq maddi dəstək verilmişdir. Belə ki, 14 tələbəyə 100 AZN, 57 tələbəyə 150 AZN, 2 tələbəyə isə 200 AZN məbləğində yardım göstərilmiş və ümumilikdə 73 tələbə bu dəstəkdən faydalanmışdır. Həmçinin Azərbaycan əsilli, Türkiyə Respublikasının vətəndaşı olan və magistratura pilləsində təhsil alan Aİİ-nin 3 tələbəsinin hər birinə aylıq 600 AZN və semestr üzrə ən yüksək təhsil göstəricilərinə malik 1 tələbəsinə 200 AZN “Heydər Əliyev təqaüdü”nün verilməsi davam etdirilir. Aİİ-nin tələbələrinə aprel ayından “Seyid Yəhya Bakuvi”, iyun ayından “Şeyxülislam Məhəmməd İrəvani”, oktyabr ayından “Həmzə Nigari” təqaüdləri verilir. Həmçinin, qızların erkən nikah, təhsildən yayınma və ailədaxili zorakılıq mövzularında maarifləndirilməsi məqsədilə “Xurşidbanu Natəvan” təqaüd proqramı əsasında 9 nəfərə birdəfəlik təqaüd ödənilmişdir.

Hesabat dövründə Fond xaricdə yaşayan soydaşlarımızın dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinin dəstəklənməsi məqsədilə 10-13 mart tarixlərində Türkiyə Respublikasının İğdır və Qars vilayətlərində, 16-18 mart tarixlərində isə Gürcüstanın Rustavi və Tbilisi şəhərlərində iftar süfrələri təşkil etmişdir. Dövlət Komitəsi və MDTF-nin təşkilatçılığı ilə mayın 29-da Türkiyə və Gürcüstandan olan din xadimlərindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri baş tutmuşdur.

**MADDİ DƏSTƏK VƏ TƏQAÜD PROQRAMLARI**

| Kateqoriya | Say |
|---|---|
| Maddi dəstək göstərilən din xadimləri | 1197 nəfər |
| Maddi dəstək göstərilmiş dini icmalar | 6 dini icma |
| Maddi dəstək göstərilən tələbələr | 76 nəfər |
| "Heydər Əliyev" təqaüdü | 1 nəfər |
| "Seyid Yəhya Bakuvî" təqaüdü | 1 nəfər |
| "Şeyxülislam Məhəmməd İrəvani" təqaüdü | 1 nəfər |
| "Həmzə Nigari" təqaüdü | 1 nəfər |
| "Xurşidbanu Natəvan" təqaüdü | 9 nəfər |

Səfər çərçivəsində din xadimlərinin işğaldan azad olunmuş ərazilərə (Şuşa və Ağdam şəhəri) səfəri təşkil edilmiş, Bakı şəhərində bir sıra tədbir və görüşlər keçirilmişdir.

Müvafiq dövr ərzində məscidlərin maarifləndirici rolunu gücləndirmək, milli-mənəvi və dini dəyərləri, mütaliə mədəniyyətinin genişlənməsini təşviq etmək məqsədilə "Hər məsciddə kitabxana" layihəsinə başlanılmışdır. Ölkə üzrə 250 şəhər, qəsəbə və kənd məscidini əhatə edən layihə çərçivəsində il ərzində dini ibadətgahlara kitab rəfləri və 100 adda olmaqla ümumilikdə 25 min nüsxə kitab təqdim edilmişdir. Bu nəşrlər dini mövzularla yanaşı, fəlsəfə, tarix, Azərbaycan və dünya klassiklərinin əsərlərini əhatə edir.

2025-ci ilin 11-14 oktyabr tarixlərində dini-ideoloji sahədə təhsil alan gənclərin milli-mənəvi dəyərlərimizə, tarixi ənənələrimizə və irsimizə bağlılığın təşviqi məqsədilə Qarabağda Zəfərin 5 illiyinə həsr olunmuş "Mənəvi dəyərlər" həftəsi keçirilmişdir. Layihə çərçivəsində Zəngilan, Laçın, Şuşa, Xankəndi və Ağdam şəhərlərində yerləşən dini-tarixi abidələr ziyarət edilmiş, tələbələr azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq prosesləri ilə tanış olmaq imkanı əldə etmişlər.

**DİN XADİMLƏRİ ÜÇÜN KEÇİRİLƏN "PEŞƏKAR DİNİ FƏALİYYƏT: MÜASİR ÇAĞIRIŞLAR KONTEKSTİNDƏ" MÖVZUSUNDA SEMİNAR-TRENİNQLƏR**

| Tarix | Keçirildiyi yer |
|---|---|
| 20-21 avqust 2025 | Quba |
| 27-28 avqust 2025 | Masallı |
| 19-20 noyabr 2025 | Şəki |
| 26-27 noyabr 2025 | Göyçay |

2025-ci il avqustun 20-21-də Quba rayonunda, avqustun 27-28-də Masallı rayonunda, noyabrın 19-20-də Şəki şəhərində və noyabrın 26-27-də Göyçay rayonunda din xadimləri üçün “Peşəkar dini fəaliyyət: müasir çağırışlar kontekstində” mövzusunda seminar-treninq keçirilmişdir. Sözügedən seminar-treninqdə ümumilikdə 200 din xadimi iştirak etmişdir.